

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 235 (21.136)

*10 dekabr 2014-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

### *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

**Ulu öndər Heydər ƏLİYEV:** ***Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin idi. Müstəqil dövlət taleyin xalqımıza bəxş etdiyi töhfə kimi xalqımızın əvəzsiz milli sərvəti olmaqla bərabər, onun rəhbərlərindən tutmuş hər bir vətəndaşı qarşısında böyük məsuliyyət qoyurdu.***



*(Əvvəli qəzetin ötən sayında)*

Xatırlayaq ki, bütün bunlar baş verdiyi zaman artıq SSRİ-nin dağılması heç kimdə şübhə yaratmırdı və ittifaq respublikalarının bir çoxu öz müstəqilliyini bərpa etmişdi. SSRİ-də 1991-ci il 19-21 avqust dövlət çevrilişini tələm-tələsik müdafiə edən başda Ayaz Mütəllibov olmaqla Azərbaycan Kommunist Partiyasının rəhbərliyi xalqın artan təzyiqini, eləcə də öz hakim mövqeyini saxlamaq üçün 1991-ci il avqustun 30-da Ali Sovetin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamə qəbul etməyə məcbur oldu. Əslində, bu bəyannamənin qəbul edilməsi və həmin gün Bakıda fövqəladə vəziyyətin ləğv olunması sentyabrın 8-də Azərbaycanda keçiriləcək prezident seçkilərini təmin etməyə yönəldilmişdi. Bu sessiyada deputatlardan bir neçəsinin təkidinə baxmayaraq, o zamankı rəhbərlik referendum yolu ilə müstəqillik haqqında xalqın rəyini öyrənməyi lazım bilmədi. Bundan başqa, müstəqillik haqqında bəyannamə iki həftə ərzində "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsini nəzərdə tutsa da, naməlum səbəblərdən bu iş düz 48 gün, yəni oktyabrın 18-nə qədər, onun dərc olunması isə daha 20 gün yubadıldı. Konstitusiya Aktı qəbul edilərkən Ali Sovet bu haqda referendum keçirmək haqqında qərar qəbul etməli idi. Bu da naməlum səbəbdən noyabrın 15-nə qədər yubadıldı.

SSRİ-nin saxlanması ilə bağlı digər cəhdlər ondan ibarət oldu ki, Qorbaçov və doqquz respublika başçısı "9+1" bəyannaməsini qəbul etdi və Novo-Oqaryovo danışıqlar prosesi başlandı. Sovet İttifaqının yerinə Müstəqil Dövlətlər Birliyinin yaradılmasına cəhd göstərildi və 1991-ci il avqustun 20-də ittifaq müqaviləsinin imzalanması nəzərdə tutuldu. Bundan sonra Moskvada məşhur avqust qiyamı baş verdi və Azərbaycan rəhbərliyi bütövlüklə fövqəladə rejimin tətbiq olunmasını dəstəklədi. Maraqlı faktdır ki, artıq Moskva jurnalistləri Qorbaçovun Forosdan qayıtmasını və Yanayev-Kryuçkov güruhunun qarşısının alınması haqqında kadrları şərh etdiyi bir vaxtda, Azərbaycan diktorları hələ də "QKÇP"-nin qərarlarını oxumaqda idilər. İttifaq müqaviləsinin imzalanması təxirə salındı, müəmmalı avqust qiyamı isə, əslində, totalitar sistemin dağılmasının son nöqtəsini qoydu. Rusiya prezidentinin sərəncamı ilə Rusiyanın ərazisində Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Mərkəzi Komitə ləğv olundu.

1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının 23-cü fövqəladə qurultayında Azərbaycan Kommunist Partiyası da ləğv olundu.

1991-ci il aprelin 9-da Gürcüstanın Ali Soveti referendumun nəticələrini nəzərə alaraq, dövlət müstəqilliyinin bərpası haqqında müvafiq akt qəbul etdi, avqust qiyamından sonra isə əksər sovet respublikaları öz müstəqilliyini bəyan etdi. Təəssüflər olsun ki, Azərbaycan bunların sırasında deyildi.

1991-ci il dekabrın 1-də Ukraynada keçirilən referendumun nəticələri şərh edilərkən aydın oldu ki, bu respublika ittifaq müqaviləsinə qoşulmayacaqdır. Bir neçə gün sonra isə Rusiyanın, Ukraynanın və Belarusun başçıları Belovejsk sazişləri əsasında bəyan etdilər ki, Sovet İttifaqı öz fəaliyyətini dayandırır və artıq beynəlxalq hüququn subyekti kimi mövcud deyildir. 1991-ci il dekabrın 8-də SSRİ, əslində, öz tarixinin son gününü yaşadı.

Məsələ bundadır ki, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində SSRİ-nin dağılması və mərkəzdənqaçma meyilləri ittifaq respublikalarının hərəsində bir cür təzahür edirdi. Bu proses Pribaltika respublikalarında, Ukrayna, Belarus, Gürcüstan, Ermənistan, Moldova və başqa respublikalarda yerli rəhbərliklə xalq kütlələrinin vahid məqsəd və hərəkəti ilə müşayiət olunduğu üçün daha ağrısız və itkisiz keçirdi.

1991-ci il dekabrın 29-da, nəhayət ki, Azərbaycan Respublikasında da ümumxalq referendumu keçirildi. Bu referendumun bülleteninə cəmi bir sual daxil edilmişdi. Bu sual müstəqillik haqqında Konstitusiya Aktına münasibəti öyrənmək məqsədini daşıyırdı və əhalinin 95 faizi bu referendumda iştirak edərək müstəqillik, suverenlik yolunu seçdi. Beləliklə də, Azərbaycanın müstəqilliyi yalnız SSRİ dağıldıqdan sonra öz tam hüquqi təsdiqini tapdı, müstəqillik haqqında Konstitusiya Aktı qüvvəyə mindi.

Bütün bunlar göstərir ki, o zamankı respublika rəhbərliyi Azərbaycanın dövlət müstəqilliyinə var gücü ilə müqavimət göstərir və onun artıq dağılmış SSRİ-dən çıxmasına hər vəchlə mane olurdu.

Hətta müstəqillik haqqında Konstitusiya Aktı qəbul ediləndən sonra Azərbaycan rəhbərliyi respublikanın müstəsna səlahiyyətinə aid olan bir sıra məsələləri keçmiş ittifaqın dövlət şurasının iştirakı ilə həll etməyə çalışmış, yerli hərbi qüvvələrin vahid ittifaq rəhbərliyinə tabe edilməsinə razılığını bildirmişdi. Bundan başqa, SSRİ Ali Sovetinin işində iştirak etmək üçün Azərbaycandan oraya 27 deputat göndərməyə cəhd etmiş, yalnız deputatların ciddi müqaviməti nəticəsində buna nail ola bilməmişdi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 80-ci illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi. Bu tarixi və obyektiv proseslər, nəticədə, SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarixi səhnədən çıxmasına və müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bunun ardınca baş verən hadisələr – yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir hal və beynəlxalq hüquq normalarının qanuni təzahürü idi. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri hesab etmək olmaz. Bu, tarixi obyektiv proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi.

XXI əsrin ilk ilində – 2001-ci ildə Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etməsinin on illiyi tamam olur. Sözsüz ki, əsrin, minilliyin ilk ilində qeyd olunan bu yubiley bizim tariximizin ən mühüm mərhələlərindən birinə çevriləcəkdir. Müstəqilliyə gedən yollar heç də asan və hamar olmayıbdır. Təəssüf olsun ki, bu gün də ən yaxın tariximizi təhrif etmək, onu müxtəlif siyasi qüvvələrin "xeyrinə" saxtalaşdırmaq meyilləri duyulur. Bu, dözülməz haldır.

Keçdiyimiz tarixi yola nəzər salarkən aydın olur ki, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına salınması heç cür yolverilməzdir.

Beləliklə, 1991-ci il oktyabrın 18-də "Müstəqillik haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə XX əsr Azərbaycan tarixinin dördüncü mərhələsi başlandı. Biz o vaxtdan azad, sərbəst yaşayırıq, müstəqil dövlətik. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibidir.

Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin idi. Müstəqil dövlət taleyin xalqımıza bəxş etdiyi töhfə kimi xalqımızın əvəzsiz milli sərvəti olmaqla bərabər, onun rəhbərlərindən tutmuş hər bir vətəndaşı qarşısında böyük məsuliyyət qoyurdu. Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Lakin Azərbaycanın müstəqillik tarixinin ilk illərinə nəzər salsaq, müstəqil dövlətin qarşısında duran vəzifələrin heç də həmişə ardıcıllıqla və qətiyyətlə həyata keçirilmədiyinin şahidi oluruq. 1991-ci ildə və 1992-ci ilin birinci yarısında respublikaya rəhbərlik edən şəxslər dünyada və SSRİ-də gedən siyasi proseslərə, dünya hadisələrinin inkişaf meyillərinə tam zidd siyasət yeridərək, xalqın müstəqillik iradəsinin əksinə gedərək, bütün mümkün vasitələrlə SSRİ-ni qoruyub saxlamağa çalışanlarla bir mövqedə dayanır və nəyin bahasına olursa-olsun, Azərbaycanın bu dövlətin tərkibindən çıxmasına yol verməməyə cəhdlər göstərirdilər.

Müstəqillik yoluna qədəm qoymuş hər bir ölkə kimi, Azərbaycan üçün də öz daxili və xarici siyasəti konsepsiyasını təxirə salmadan hazırlayıb onun həyata keçirilməsinə başlamaq aktual və taleyüklü vəzifə idi. Təəssüf ki, 1991-1992-ci illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və respublikamızın daxilində qızğın hakimiyyət çəkişməsi gedirdi. Təbiidir ki, müxtəlif qüvvələrin özlərinə məxsus silahlı dəstələrdən istifadə edərək apardığı bu hakimiyyət mübarizəsi Azərbaycana böyük zərbələr vurdu.

Azərbaycanda siyasi proseslərin bu cür qorxulu və ziddiyyətli gedişi respublika rəhbərliyinin Azərbaycanın müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktı qəbul ediləndən sonra da müstəqil xətt yeritmədiyindən, ikiüzlü, qeyri-ardıcıl siyasət apardığından xəbər verirdi. Məhz o zamankı rəhbərliyin respublikanın real müstəqilliyi üçün əməli addımlar atmaması, xalq kütlələrinin artan narazılığını və etiraz səsini qulaqardına vurması və bütün bu etirazları boğmağa çalışması həm Azərbaycanın müstəqil dövlət quruculuğunun sonrakı işlərini çətinləşdirmiş, təhlükəli istiqamətə yönəltmiş, həm də Dağlıq Qarabağ problemini çətin düyünə salaraq, bugünkü nəsil üçün ağır problemlər yaratmışdır.

SSRİ dağıldıqdan və Azərbaycan müstəqil dövlət statusu aldıqdan sonra da Mütəllibov hökuməti xarici və daxili siyasətində daha çox müstəqil Azərbaycan dövlətinin deyil, öz hakimiyyət maraqlarını qoruyur və bu məqsədlə də xarici dövlətlərlə münasibətlərdə birtərəfli siyasət yeridirdi. Bütün bunlar Azərbaycanın iqtisadi, siyasi maraqlarına, onun təhlükəsizliyinə, ərazi bütövlüyünə, suveren dövlət hüquqlarının reallaşmasına cavab vermirdi.

Təəssüflə qeyd etmək lazımdır ki, 1992-ci ilin martından may ayına qədərki dövrdə də Azərbaycanın müstəqil dövlətçilik maraqlarından irəli gələn ardıcıl, düşünülmüş siyasət həyata keçirilmədi. Bu dövrdə Azərbaycanda başlanan hakimiyyət uğrunda silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vurdu. Azərbaycanın bu gün də həllinə nail ola bilmədiyi qlobal problemlər məhz həmin çoxhakimiyyətlilik və ondan sonrakı hakimiyyət çəkişmələri dövründə yaradılmışdır. Həmin dövrü bütövlükdə Azərbaycanın müstəqillik tarixinin ən ziddiyyətli, ziyanlı və təhlükəli dövrü hesab etmək olar. Cəmi bir neçə ayda müstəqil Azərbaycan dövlətinə elə zərbələr vuruldu ki, bunun təsirini həm indiki nəsil hiss edir, həm də gələcək nəsillər onlardan uzun müddət xilas ola bilməyəcəklər.

1991-1992-ci illər ərzində Dağlıq Qarabağda vəziyyət günü-gündən gərginləşirdi. Xocalı faciəsi baş verdi. 1992-ci il martın 6-da Mütəllibov istefaya getməyə məcbur oldu. Əsl hərc-mərclik dövrü başlandı. Həmin vaxt xəyanət nəticəsində Şuşanın təslim edilməsi, 1992-ci il may ayının 15-də o zamankı müdafiə naziri Rəhim Qazıyevin silahlı qüvvələrin kvotası ilə bağlı Daşkənddə imzaladığı xəyanətkar saziş bütün Azərbaycan xalqının və onun silahlı qüvvələrinin bu gününə və gələcəyinə ömürlük zərbə vurmuşdur. O dövrdə yüzlərlə belə hallar baş vermişdir.

Mayın 14-də Mütəllibov yenidən hakimiyyətə qayıtdı, mayın 15-də isə xalq cəbhəsi parlamentin binasına hücum təşkil etdi. Mayın 18-də parlament 4 gün əvvəl qəbul etdiyi öz qərarını qanunsuz elan etdi və beləliklə, Mütəllibovun bir daha hakimiyyətə qayıtmaq cəhdləri puç oldu.

1992-ci ilin may-iyun aylarında Cəbhə-Müsavat birliyi hakimiyyəti ələ aldı. Əslində, bu, Azərbaycanda neobolşevizm ab-havasının bərqərar olmasına gətirib çıxardı. İqtisadiyyatda başlanmış hərc-mərclik davam etdi. Respublikanın maddi ehtiyatları qəddarcasına talanır, malların xaricə satışı nəticəsində əldə olunan vəsait xarici banklarda kiminsə şəxsi hesabında yatıb qalırdı. Əhalinin böyük bir hissəsi yoxsulluq həddində yaşayırdı. Azərbaycandan xaricə güclü, intellektual axın başlandı və bir çox tanınmış alim, yazıçı, şair, incəsənət xadimi Türkiyəyə, İrana, Rusiyaya və başqa ölkələrə üz tuturdu. Azərbaycan dilinin adı dəyişdirildi və bununla dil haqqında Konstitusiya müddəası kobudcasına pozuldu.

*(Ardı qəzetin növbəti sayında)*

# Ümummilli lider Heydər Əliyevin vətənpərvərlik təlimi

***Bütün zamanların ən böyük Azərbaycanlısı, görkəmli dövlət xadimi Heydər Əliyevin möhtəşəm fəaliyyəti Vətənə, xalqa xidmətin misilsiz nümunəsi olduğu kimi, onun mükəmməl konsepsiyaları, müdrik ideyaları da son dərəcə qiymətlidir. Bu baxımdan ulu öndərin vətənpərvərlik təlimi çox mühüm dəyərə malikdir. Dahi rəhbər müxtəlif məruzə, çıxış və nitqlərində bu məsələyə xüsusi diqqət yetirmiş, vətənpərvərliyin mahiyyəti, prinsipləri barədə qiymətli fikirlər söyləmiş, eyni zamanda bütün fəaliyyəti boyunca bu təlimin hərtərəfli şəkildə gerçəkləşdirilməsi üçün ardıcıl, konseptual tədbirlər həyata keçirmişdir.***

Vətənpərvərliyin mahiyyətindən danışarkən ümummilli lider bunun mənəviyyatla bilavasitə bağlılığını vurğulayaraq qeyd edirdi: ***"Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır".***

Ulu öndər Heydər Əliyev onu da nəzərə çatdırırdı ki, vətənpərvərlik hissinin formalaşdırılması milli mənlik şüurunun inkişaf etdirilməsi ilə birbaşa əlaqədardır. Çünki milli mənlik şüuru milli özünəməxsusluğun bütün əlamətlərini özündə cəmləşdirir. Özünü ölkəsinin əsl vətəndaşı hesab edən hər bir şəxs əməli fəaliyyətini də məhz xalqa və Vətənə layiqli xidmət istiqamətində qurmalıdır. Dahi rəhbər demişdir: ***"Milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs milli həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir".*** Göründüyü kimi, ulu öndərimiz daim Vətən və xalq mənafeyinin şəxsi maraqlardan üstün tutulmasını vacib şərt saymışdır.

Müstəqil Azərbaycanın siyasi-ideoloji strategiyasında mühüm yer tutan və ulu öndərin böyük dühasının bəhrəsi olan vətənpərvərlik təlimi müstəqil dövlətimizin hərtərəfli inkişafının etibarlı təməlidir. Vətənpərvərliyi tarixilik və müasirlik kontekstində dəyərləndirən, ölkəmizin dünəni, bu günü və gələcəyi üçün əsas istiqamətverici təlim, bütün xalq üçün başlıca qayə sayan ulu öndərin nəzəri irsində soy-kökə qayıdış, milli tarixi yaddaşın bərpası kimi mənəvi keyfiyyətlər də mühüm yer tutur. Bu da təsadüfi deyil, çünki xalqımızın özünəməxsus zəngin tarixi keçmişini dərindən bilmək və ona hörmətlə yanaşmaq hər bir şəxsdə vətənpərvərlik hissini daha da qüvvətləndirir. Ümummilli lider deyirdi: ***"Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən anlatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, vətəndaşlıq hissini, azərbaycanlılıq hissini yüksəldərik".***

Ulu öndər onu da vurğulayırdı ki, vətənpərvərlik birtərəfli, məhdud anlayış deyil, çoxşaxəli mahiyyət daşıyır, özündə siyasi, ideoloji, mənəvi, əməli və sair keyfiyyətləri birləşdirir. Ona görə də əsl vətənpərvərlik üçün bir çox vacib məsələlərə əməl etmək gərəkdir. Görkəmli siyasi xadim deyirdi: ***"Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik!"***

Ümummilli liderin vətənpərvərlik təlimində ölkəni, doğma torpağı qorumaq, müstəqilliyi daha da möhkəmləndirmək amalı ən mühüm vəzifələr sırasındadır. Müstəqil dövlətimizin bu günü də, sabahı da xalqın hər bir nümayəndəsindən möhkəm vətəndaş əqidəsinə yiyələnməyi və bu yolda fədakarlıqla çalışmağı tələb edir. Bu məsələdən danışarkən ulu öndər tövsiyə edirdi ki: ***"Hər bir vətənpərvər adam, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir!.. Xalqımızın, Vətənimizin, respublikamızın taleyi hər bir insanın taleyinə çevrilməlidir!"***

Ümummilli lider dəfələrlə nəzərə çatdırmışdır ki, vətənpərvərlik respublikanın hər bir vətəndaşı, xalqın hər bir nümayəndəsi üçün başlıca amala, əsas qayəyə çevrilməli, hamı bu ülvi, müqəddəs ideya ətrafında birləşərək ölkənin və millətin tərəqqisi naminə ardıcıl fəaliyyət göstərməlidir. Dahi rəhbərimizin aşağıdakı fikri də bu vacib məqamı nəzərə çatdırır: ***"Hər bir vətəndaş Vətənimizin, xalqımızın taleyi ilə yaşamalıdır!.. Vətən birdir və hamı bu Vətən uğrunda çalışmalıdır".***

Xalqımızın böyük oğlu yaşından, peşəsindən asılı olmayaraq, cəmiyyətin hər bir üzvünün öz fəaliyyət sahəsində vicdanla çalışmasını, öz amal və əməlləri ilə Vətənin və xalqın hərtərəfli tərəqqisinə xidmət göstərməsini məhz vətənpərvərlik işi kimi dəyərləndirmişdir. Qəlbi Vətən eşqi ilə döyünən hər bir şəxsin bu yöndə atdığı addım ölçüsündən asılı olmayaraq, ölkə və xalq üçün əhəmiyyət və dəyər qazanır. Bütün bunlar tam halda, bir yerdə möhtəşəm vətənpərvərliyi formalaşdırır ki, bunda hər bir şəxsin özünəməxsus payı vardır. Ulu öndər bu sahədə ziyalıların da öhdəsinə mühüm vəzifələr düşdüyünü vurğulayaraq fikrini belə ümumiləşdirmişdir: ***"Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir".***

Ulu öndərimiz Heydər Əliyev vətənpərvərliyin yüksək səviyyədə formalaşması üçün sistematik, ardıcıl tədbirlərin həyata keçirilməsinin vacibliyini önə çəkərək bunu ümumxalq işi, taleyüklü məsələ kimi dəyərləndirmişdir. Ulu öndərin aşağıdakı fikri bütün zamanlar üçün aktual olan vəzifəni nəzərə çatdırır: ***"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətənə, torpağa, millətə sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".***

Müstəqil dövlətimizin gələcəyinin böyüməkdə olan nəsilləri necə və hansı ruhda savada yiyələndirməkdən, tərbiyə etməkdən çox asılı olduğunu vurğulayan müdrik liderimizin parlaq dühası, ardıcıl səyləri sayəsində Azərbaycan tarixinin, dilinin, ədəbiyyatının, mədəniyyətinin hərtərəfli şəkildə və dərindən öyrənilməsi, təbliği, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, milli şüurun dirçəlişi, ümumən, bütün sahələrdə vətənpərvərlik amalının möhkəm, etibarlı bazasının formalaşdırılması yönündə konseptual tədbirlər uğurla həyata keçirilmişdir. Dahi şəxsiyyət Heydər Əliyev tədris ocaqlarında, o cümlədən ümumtəhsil məktəblərində şagirdlərin bütün müvafiq elmlər üzrə zəruri biliklərə yiyələnməsini, onların seçdikləri gələcək ixtisaslara uyğun fənləri daha dərindən öyrənməsini lazım bilmiş, bunlarla yanaşı, istisnasız olaraq hər bir şagirdin mükəmməl bilməsi son dərəcə vacib olan fənləri də ayrıca vurğulamışdır: ***"Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən o fənlərdə ki, ixtisaslaşmaq istəyir, – onu daha da yaxşı bilməlidirlər... Amma orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər".*** Bütün bunlar isə təhsilin milli məzmununu, vətənpərvərlik qayəsini müəyyənləşdirən çox mühüm faktorlar kimi düşünülmüş, ciddi bir vəzifə olaraq qarşıya qoyulmuşdur. Təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlərin, xüsusən Azərbaycan tarixinin, dilinin və ədəbiyyatının tədrisinin mahiyyətcə yeniləşməsini də dahi rəhbər çox vacib şərt saymışdır. Bu da təsadüfi deyil, çünki gələcəyin qurucuları olan yeni nəsillərin vətənpərvərlik amalına yiyələnməsi məktəbdən başlayır və bu işin düzgün təşkili ölkə üçün həyati əhəmiyyətə malikdir.

Müstəqil Azərbaycanın təhsil sisteminin qarşısında duran məqsəd və vəzifələrdən bəhs edərkən dahi şəxsiyyət təlim prosesinin düzgün qurulmasının böyük amalların, ideyaların, vəzifələrin gerçəkləşməsi, bütövlükdə, xalqın və ölkənin sabahkı taleyi üçün son dərəcə vacib əhəmiyyət daşıdığını konkret şəkildə nəzərə çatdırmışdır: ***"İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır".***

Ulu öndərimizin müdrik tövsiyəsi belədir ki, gənc nəsli vətənpərvərlik ruhunda yetişdirmək üçün hər bir müəllimin, tərbiyəçinin şəxsi nümunəsi vacib şərtdir: ***"Məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun... Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".***

Bəli, görkəmli dövlət xadimi Heydər Əliyevin tövsiyə etdiyi əsl vətənpərvərliyin təməli, əsas xətti məhz budur – həmişə və hər yerdə Azərbaycan naminə çalışmaq, onun hərtərəfli yüksəlişinə səy göstərmək, milli-mənəvi dəyərləri qorumaq, Vətən və xalq qarşısında borc və məsuliyyəti dərk edib əməli fəaliyyətdə rəhbər tutmaq!

Hazırda ölkəmizdə bütün digər sahələr yanaşı, vətənpərvərlik təliminin prinsiplərinin ardıcıl və əhatəli şəkildə həyata keçirilməsi sahəsində də ulu öndərin siyasi kursuna dönmədən əməl olunur, Vətənimizin və xalqımızın hərtərəfli yüksəlişi üçün misilsiz işlər görülür. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu yöndə son dərəcə böyük və əhatəli işlər görülmüş və görülməkdədir. Hazırda Naxçıvan ümummilli liderin siyasi kursuna, onun vətənpərvərlik təliminə istinadən heyrətamiz inkişafın və quruculuğun ən parlaq təzahür meydanıdır.

***Bir sözlə, ümummilli lider Heydər Əliyevin dərin milli məzmun və mündəricəyə malik vətənpərvərlik təlimi son dərəcə qiymətli olub, çağdaş dövrdə də, gələcək yüzillərdə də öz dəyərini, əhəmiyyətini saxlamaq gücünə malikdir. Bu konsepsiya hər bir Azərbaycan vətəndaşının fəaliyyət devizi, həyat amalıdır.***

**Hüseyn HƏŞİMLİ**
*filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi*

*Ümummilli lider Heydər Əliyev Azərbaycanın ən parlaq dövlət xadimidir. Ölkəmizə həm birinci, həm də ikinci rəhbərliyi dövründə onun fəaliyyəti yalnız və yalnız ümummilli mənafelərə xidmətlə bağlı olub.*

# Ulu öndərimizin xatirəsi anılır



Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının dekabrın 9-da Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar keçirdiyi konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli bu fikirləri səsləndirdi.

Ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri bildirdi ki, ulu öndər Heydər Əliyev Vətəninə göstərdiyi əvəzsiz xidmətlərlə xalqımızın bütün tarixi ərzində ümummilli lider səviyyəsinə yüksələn yeganə dövlət xadimi kimi qəlbimizdə özünə əbədi abidə ucaldıb. Bu gün dünyanın siyasi xəritəsində və beynəlxalq siyasi mühitdə mövcud olan dövlətlər içərisində özünəməxsus yeri və rolu olan müstəqil Azərbaycan Respublikası ulu öndərimiz Heydər Əliyevin öz xalqına miras qoyduğu şah əsəridir.

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan", Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev "Ümummilli lider Heydər Əliyev və Naxçıvan", Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı İcra Katibliyinin baş referenti Rail Tağızadə "Böyük öndər Heydər Əliyev və Yeni Azərbaycan Partiyası" mövzularında məruzələrlə çıxış etdilər.

Məruzələrdə bildirildi ki, müstəqil Azərbaycan dövlətinin yaradılması üçün zəruri sosial-iqtisadi baza ulu öndərin Azərbaycana rəhbərliyinin ilk dövründə, 1969-1982-ci illərdə yaradılıb, Azərbaycan Respublikasının real müstəqillik yoluna qədəm qoyması isə 1993-cü ilin iyun ayında ümummilli lider Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışından sonra mümkün olub. Xalqımızın böyük oğlu Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə dövlət müstəqilliyimizin əbədiliyi, dönməzliyi təmin edilib, ölkəmizdə dayanıqlı ictimai-siyasi sabitlik yaradılıb, sosial-iqtisadi və konstitusion-hüquqi islahatlar keçirilib, xarici siyasətdə ardıcıl uğurlar qazanılıb.

Qeyd olundu ki, ulu öndərin Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi, muxtar respublika Ali Məclisinə rəhbərlik etdiyi 1990-1993-cü illər bütövlükdə Azərbaycanın müstəqillik tarixinin çox mühüm bir dövrü olub. Məhz bu dövrdə, bilavasitə, ümummilli liderimizin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində ilk dəfə Naxçıvanda müstəqil Azərbaycanın dövlətçilik atributları təsis edilib, aqrar islahatlara başlanılıb, ictimai-siyasi sabitlik bərpa olunub, bir sıra beynəlxalq təşkilatlar və xarici dövlətlərlə, xüsusən qonşu Türkiyə və İranla uğurlu diplomatik münasibətlər qurulub, muxtar respublikanın müdafiəsi istiqamətində zəruri tədbirlər həyata keçirilib. Bu gün sürətlə inkişaf edən müstəqil Azərbaycan kimi, öz intibah dövrünü yaşayan onun Naxçıvan Muxtar Respublikası da ulu öndərin bünövrəsini qoyduğu inkişaf və tərəqqi siyasətinin nuruna boyanıb.

Konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli yekun vurdu.

Sonda tədbir iştirakçıları Heydər Əliyev Muzeyinin qiymətli eksponatları ilə tanış oldular.

✍ **Rauf ƏLİYEV**

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Heydər Əliyev lektoriyası"nın "Heydər Əliyev və Naxçıvan" mövzusunda növbəti məşğələsi keçirilib.***

# "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilib



Tədbiri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov açıb.

Lektoriyada Naxçıvan Özəl Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Heydər Əliyev və Naxçıvan" mövzusunda çıxış edərək ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvan dövründən danışıb. Bildirilib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə bütün bölgələrə, o cümlədən Naxçıvan Muxtar Respublikasının inkişafına xüsusi diqqət və qayğı göstərib. Hələ sovetlər dövründən başlayaraq muxtar respublikada enerji, kənd təsərrüfatı, sənaye, eləcə də elm, təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişaf etdirilməsi sonralar Azərbaycan müstəqillik qazandıqdan sonra regionun infrastruktur inkişafında mühüm rol oynayıb.

Qeyd olunub ki, dahi rəhbərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi müstəqillik tariximizin ən zəngin və dəyərli səhifələrindəndir. Belə ki, həmin dövrdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi və digər tarixi qərarlar Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsində mühüm hadisələrdir. Regiona erməni hücumlarının aramsız xarakter aldığı həmin dövrdə xalqımızın ümummilli lideri Heydər Əliyevin qətiyyəti nəticəsində Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanılmasına imkan yaradıb. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində ölkə məhv olmaqdan xilas edilib və Azərbaycan yeni inkişaf dövrünə qədəm qoyub.

Tədbirə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov yekun vurub.

**Xəbərlər şöbəsi**

*10 dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür*

# Muxtar respublikada insan hüquq və azadlıqlarının müdafiəsi diqqət mərkəzindədir

***1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi İnsan hüquqları haqqında Ümumi Bəyannamə qəbul etmişdir. Həmin tarixdən etibarən hər il dekabrın 10-u bütün dünyada "İnsan Hüquqları Günü" kimi qeyd olunur.***

"İnsan hüquqları haqqında Ümumi Bəyannamə" insan hüquqlarının tanınmasının azadlıq, ədalət və ümumi sülhün əsası olduğunu, xalqlar arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin zəruriliyini və digər məsələləri nəzərdə tutur. Bu mənada bəyannamə insan hüquqlarının toxunulmazlığına təminat verən əsas beynəlxalq sənəddir.

Sülh və insan hüquqları bir-birindən ayrılmazdır. İnsan hüquqlarına yalnız sülh və əməkdaşlıq şəraitində əməl olunur. Bütün ölkələrdə bu hüquqların tapdalanması bəşəriyyətə qarşı cinayətlərlə və sülhün pozulması ilə nəticələnə bilər. Ona görə də Ümumi Bəyannamədə elan edilir ki, "bəşər nəslinin bütün üzvlərinə mənsub olan bərabər və ayrılmaz hüquqların tanınması azadlıq, ədalət və ümumi sülh üçün əsasdır". Ümumi Bəyannamədə beynəlxalq münasibətlər tarixində, ilk dəfə olaraq, hamı tərəfindən əməl olunmalı əsas insan hüquqları və azadlıqlarının siyahısı müəyyən edilmişdir. Bu beynəlxalq sənəddə vətəndaşlıq və siyasi hüquqlar, habelə sosial-iqtisadi hüquqlar hamının əməl etməli olduğu insan hüquqları sırasına aid edilir.

Müstəqilliyini yenidən bərpa etdikdən sonra demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları haqqında Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara qoşulmaqla insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsiplərə sadiqliyini nümayiş etdirmişdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi bəyan etmişdir.

Müstəqil dövlətimizin ilk Konstitusiyasının preambulasında göstərilir ki, Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qoruyaraq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğunu bəyan edir. Başqa sözlə, öz tarixi müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunu özü üçün inkişaf yolu seçmişdir. Konstitusiyanın III fəsli bütövlükdə insan və vətəndaş hüquqları və azadlıqlarına həsr edilmişdir. Demək olar ki, İnsan hüquqları haqqında Ümumi Bəyannamə və insan hüquqlarına dair digər beynəlxalq aktlarla müəyyən edilən əksər hüquq və azadlıqlar Konstitusiyada təsbitini tapmışdır.

Konstitusiyanın qəbulundan sonra ölkəmizdə ayrı-ayrı sahələr üzrə qanunlar qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il fevralın 22-də imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman və 1998-ci il 18 iyun tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam ölkəmizdə insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmişdir.

1996-2000-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Ulu öndərin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuş, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın ikinci Fakültativ Protokoluna qoşulmuşdur. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Həmin gün Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı ratifikasiya etmiş və üzərinə milli qanunvericiliyin bu Konvensiyaya uyğun təkmilləşdirilməsi öhdəliyini götürmüşdür. 2001-ci il dekabrın 28-də "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun qəbulu və daha sonra Ombudsman təsisatının yaradılması və fəaliyyət göstərməsi üçün hüquqi və maddi bazanın təşkili insan və vətəndaş hüquqlarının təmini istiqamətində həyata keçirilən hüquqi islahatların davamı olmuşdur. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təminatı sahəsində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması prosesinin davamı kimi 2002-ci il dekabrın 24-də qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun da mühüm əhəmiyyəti vardır.

Ulu öndər Heydər Əliyevin siyasi xəttini inamla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. İnsan hüquqlarının qorunmasını və inkişafını daim diqqət mərkəzində saxlayan ölkə başçısı bu sahədə görülən tədbirlərin genişləndirilməsi məqsədilə 2006-cı il 28 dekabr tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq olunması haqqında" Sərəncam imzalamışdır. Sərəncamda Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarına, məhkəmələrinə, baş prokurorluğuna normativ-hüquqi aktların tətbiqi zamanı Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarətin gücləndirilməsi tövsiyə edilmiş, bununla da, ölkəmizdə insan hüquq və azadlıqlarının təmini istiqamətində daha qətiyyətli və prinsipial addımlar atılmasına zəmin yaranmışdır. 2006-cı il mayın 9-da BMT Baş Assambleyasında keçirilən seçkilər nəticəsində Azərbaycanın BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilməsi bu dövrdə ölkəmizdə əldə olunan ən mühüm nailiyyətlərindən biridir.

Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir. Sərəncamda göstərilir ki, demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikası insanların layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərir.

Hüquqi, demokratik dövlət quruculuğunun ən mühüm amili olan insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı ölkəmizdə həyata keçirilən islahatlar Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Muxtar respublikada insan hüquq və azadlıqlarının yeni müdafiə mexanizmi olan Müvəkkil təsisatı yaradılmış, penitensiar xidmətin infrastrukturu təkmilləşdirilmiş, hər bir vətəndaşın öz konstitusion hüquq və qanunla qorunan mənafelərinin həyata keçirilməsi, o cümlədən əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə vəkillik institutunun hüquqi statusu müəyyənləşdirilmiş və inkişaf etdirilmişdir. Ölkə Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq institutlarının inkişafında müstəsna rol oynamışdır. Fərmanın qəbul edilməsindən ötən illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada hüquq institutlarının inkişaf etdirilməsi, o cümlədən məhkəmə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülmüş və fərmandan irəli gələn vəzifələrin icrası təmin edilmiş, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

2011-ci il dekabrın 29-da keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda müvafiq dəyişikliklər edilmişdir. Dəyişikliklərə əsasən, ölkəmizin qoşulduğu "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizmin funksiyalarını və informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələri Naxçıvan Muxtar Respublikasında yerinə yetirməsinə nəzarəti həyata keçirən təsisat qismində Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir. Qanuna edilmiş bu dəyişiklik muxtar respublikada insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mövcud qanunvericiliyin daha da təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasına xidmət edir.

*Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq insan hüquq və azadlıqları sahəsində yeni-yeni uğurlara imza atır. Ölkəmiz iqtisadi cəhətdən inkişaf etdikcə, demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları cəmiyyət həyatında getdikcə daha dolğun, real məzmun kəsb etməyə başlayır. Çünki ölkəmizdə həyata keçirilən hüquq islahatları, ilk növbədə, qanunçuluğun daha da möhkəmlənməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının təminatına hesablanmışdır.*

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***

# Muxtar respublikanın enerji potensialından səmərəli istifadə olunur

*Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən tələbatçıların elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlər payız-qış mövsümündə də muxtar respublikanın bütün yaşayış məntəqələrinin dayanıqlı elektrik enerjisi təminatına imkan verir.*

Noyabr ayında da Dövlət Energetika Agentliyinin kollektivi qarşıya qoyulan vəzifələrin icrasını diqqətdə saxlamışdır. Belə ki, Naxçıvan Modul Elektrik Stansiyasının 9 aqreqatı əsaslı təmir olunmuş, Araz Su Anbarında hidrotexniki müayinələr aparılmış, beton plitələrin altında yuyulmuş torpaq qatı bərpa edilmişdir. Ötən ay "Qıvraq" yarımstansiyasında 10 və 25 meqavolt-amper gücündə iki transformator quraşdırılmışdır. Hazırda Kəngərli Rayon Elektrik Şəbəkəsinin inzibati binası və 110/35/10 kilovoltluq "Qıvraq" yarımstansiyasında tikinti işləri davam etdirilir.

Naxçıvan şəhərində və rayonlarda yeni transformator yarımstansiyalarının quraşdırılması və elektrik verilişi xətlərinin dəyişdirilməsi istiqamətində həyata keçirilən tədbirlər noyabr ayında da davam etdirilmişdir. Belə ki, Naxçıvan şəhərinin Qaraçuq kəndində 400 kilovat gücündə yeni transformator yarımstansiyası qoyulmuş, 1,5 km uzunluğundakı hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilmişdir. Şərur rayonunun Püsyan kəndində 1 kilometr uzunluğunda yeni elektrik verilişi xətti çəkilmiş, Babək rayonunun mərkəzi Babək qəsəbəsində 250 kilovolt-amper, rayonun Gərməçataq kəndində 63 kilovolt-amper güclü yeni 10/0,4 kilovoltluq transformator yarımstansiyası qoyulmuş, 1 kilometr məsafədə yeni elektrik verilişi xətti çəkilmişdir. Ordubad rayonunda 1,5, Culfa rayonunda 1,5, Kəngərli rayonunda 1 kilometr, Şahbuz rayonunda 1, Sədərək rayonunda isə 0,5 kilometr yeni elektrik verilişi xətləri çəkilmiş, 11 müxtəliftəyinatlı transformator yarımstansiyası əsaslı təmir edilmiş, Şahbuz rayonunun Nursu kəndində 250 kilovolt-amper gücündə yeni transformator yarımstansiyası quraşdırılmışdır.

Qış mövsümündə əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə hazırlıq işləri davam etdirilir. Belə ki, noyabr ayı ərzində yüksəkgərginlikli elektrik verilişi xətlərində qrafik əsasında təmir işləri aparılmış, yararsız izolyatorlar dəyişdirilmiş və digər tədbirlər görülmüşdür. Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi də diqqət mərkəzində saxlanılır. Ötən ay 2 traktor alınaraq agentliyə verilmişdir. Həmçinin qeyd olunan dövrdə elektrik enerjisindən israfçılığa və sayğacdankənar istifadə olunmasının qarşısını almaq üçün mütəmadi reydlər keçirilmiş, istehlakçılarla maarifləndirici söhbətlər aparılmışdır.

Ümumiyyətlə, noyabr ayında görülən işlər nəticəsində muxtar respublikada elektrik verilişi xətləri, transformatorlar, stansiya və yarımstansiyaların tam fəaliyyəti təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin kollektivi bu istiqamətdə işləri növbəti aylarda da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

*Qış mövsümündə idarə, müəssisə və təşkilatların fasiləsiz fəaliyyət göstərməsi və əhalinin normal yaşayışını təmin edən əsas amillərdən biri də inzibati və ictimai yaşayış binalarının istiliklə təmin edilməsidir.*

# Naxçıvan şəhərində istiliklə təminat yüksək səviyyədədir

Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, bu məqsədlə Naxçıvan şəhərində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq bütün qazanxanalara və istilik şəbəkəsi obyektlərinə baxış keçirilib, mərkəzləşdirilmiş qazanxanalarda cari təmir işləri aparılıb, buxar və istilik qazanları təmizlənib, sıradan çıxmış mühərriklər yenisi ilə əvəz edilib, elektrik və qaz xətləri yoxlanılıb, istismar müddəti başa çatan borular və siyirtmələr yenisi ilə əvəz olunub.

Xətt təsərrüfatında əsaslı və cari təmir işləri də diqqət mərkəzində saxlanılıb, qış mövsümündə Naxçıvan şəhərinin daha etibarlı istilik sistemi ilə təmin olunmasına möhkəm zəmin yaradılıb.

Əhalinin davamlı olaraq istiliklə təmin edilməsi üçün mərkəzləşdirilmiş qazanxanaların təbii qaz və mazutla, fərdi qazanxanaların isə təbii qaz və dizel yanacağı ilə işləməsi təmin edilib. Yəni qaz təsərrüfatında hər hansı bir qəza baş verərsə, qazanxanalar mazut və dizel yanacağı ilə işləyəcək, istilik sistemində fasilələr yaranmayacaq. İstilik şəbəkələrinin, ictimai yaşayış binalarının aşağı paylama və daxili istilik sisteminin yenidən qurulması ilə əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qazanxanalarda və xətt təsərrüfatlarında baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə, inzibati və ictimai yaşayış binalarının istiliklə etibarlı təmin olunmasına hərtərəfli şərait yaradılıb.

Onu da qeyd edək ki, son illər yeni inşa olunan binalarla yanaşı, mövcud inzibati və ictimai yaşayış binalarının istilik sisteminin yenidən qurulması ilə əlaqədar olaraq istilik şəbəkəsi ildən-ilə genişləndirilir, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fərdi qazanxanalar tikilib istifadəyə verilir. Fərdi qazanxanalardan inzibati və yaşayış binalarınadək olan məsafədə istilik xətləri tunellər vasitəsilə çəkilib ki, bu da həmin xətlərin korroziyaya uğramasının qarşısını alır, yaranmış nasazlıqların yerüstü kommunikasiya xətlərinin zədələnmədən aradan qaldırılmasına və müntəzəm nəzarət olunmasına əlverişli şərait yaradır.

2014-2015-ci ilin payız-qış mövsümündə 5 mərkəzləşdirilmiş və 38 fərdi qazanxana vasitəsilə 173 ictimai yaşayış binasının 7634 mənzili və 31 inzibati bina istiliklə təmin olunur. İstilik xətlərinə kənar müdaxilələrin qarşısının alınması məqsədilə İstilik Təsərrüfatı İdarəsi və mənzil-istismar sahəsinin əməkdaşları tərəfindən vaxtaşırı olaraq reydlər keçirilir, əhali arasında maarifləndirici söhbətlər aparılır.

**✍ Kərəm HƏSƏNOV**



# Heyranlığın və məğrurluğun uca zirvəsi – Əlincə qalası

## İndi bu qalada həm də tariximizin yeni səhifəsi yazılır

***Hərdən mənə elə gəlir ki, Əlincə qalası haqqında eşitməyən və ya məlumatı olmayan insan tapılmaz. Təbii ki, söhbət vətəndaşlarımızdan gedir. Ancaq məsələ burasındadır ki, qalada əvvəlki illərdə də üç dəfə olmuşdum, hər dəfə də orada olduğum zaman sanki ilk dəfə burada olurmuş kimi hislər keçirirdim. Adətən, insanı təəccüb və heyranlıq hislərinə qərq edən istənilən coğrafi məkanı təkrar görmək bu hisləri adiləşdirsə də, məncə, bunu Əlincə haqqında demək olmaz. Əlincə qalasının zirvəsində olmaq insana fərqli bir duyğu yaşadır. Bu duyğuda təəccüb də var, heyranlıq da, məğrurluq da...***

Tarixi qaynaqlara əsaslanan tədqiqatçılar qalanı iki min il bundan əvvələ aid edirlər. Əsrlər boyu Azərbaycan ərazisində mövcud olmuş feodal dövlətlərin məhz Əlincəqalanı strateji ərazi kimi nəzarətdə saxlamağa çalışması təsadüfi deyildir. Bu qalanın Atabəylər dövründə dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu Sədrəddin Əli əl-Hüseyni “Əxbar əd-dövlət əs-Səlcuqiyyə” əsərində də qeyd edir. Onun yazdıqlarından aydın olur ki, ilk Eldəniz hökmdarları dövründə İraq və Azərbaycandan yığılan bütün gəlirlər məhz Əlincəqaladakı xəzinədə toplanmışdır. Hətta bəzi dövrlərdə məhz Əlincəqaladakı xəzinəyə sahiblənmək uğrunda ciddi mübarizə getmişdir. Qalanın müdafiə sistemi o dərəcədə möhkəm olmuşdur ki, hətta bir çox Eldəniz hökmdarları ən çətin vaxtlarda məhz Naxçıvana sığınmağa çalışmışlar. Mənbələrdə də bununla bağlı məlumatlar var. Məsələn, sonuncu atabəy Özbəyin dövründə dövlətin Təbrizdən idarə olunmasına baxmayaraq, dağıdıcı monqol hücumlarından canını qorumaq üçün o, ilk növbədə, Naxçıvanda məskunlaşmağa çalışmışdı. İbn əl-Əsir 12 cildlik “Mükəmməl tarix” əsərində bu haqda yazır: “Təbrizin əsl hakimi Özbək Pəhləvan oğlu oranı buraxıb getmişdi. Çünki o, fəaliyyətsiz bir əmir idi. ...Tatarların Həmədandan çıxıb gəlməkdə olduqlarını eşitdikdə özü Təbrizi buraxıb Naxçıvana getmiş və ailəsini özündən uzaqlaşdırmaq üçün Xoya göndərmişdi”. Məlumatlardan o da aydın olur ki, Özbək Naxçıvana gəldikdən sonra Əlincəqalaya çəkilmişdir. Azərbaycan Atabəylər dövlətinin ən qüdrətli dövrlərində buranın xüsusi iqamətgaha çevrilməsi, dövlət xəzinəsinin məhz Əlincəqalada gizlədilməsi ərazinin və qalanın əhəmiyyətini bir daha göstərir...

Tarixi mənbələrdə məlumat verilir ki, Əlincə XIII-XIV əsrlərdə Hülakülərin, XIV əsrin ikinci yarısında isə Cəlairilərin hakimiyyəti altında olmuşdur. XIV əsrin 80-90-cı illərində qala dünyanın ən güclü hərbi qüvvələrini məğlubiyyətə uğradan Əmir Teymura qarşı mübarizənin əsas istinadgahına çevrilmiş və 14 il mərdliklə müdafiə olunmuşdur.

Əlincə qalası milli tariximizin mübarizlik simvolu sayılsa da, bu abidə hələ çox sirləri özündə gizlədir. Uzun illər tariximizin bu səhifəsi ilə bağlı yetərli araşdırmalar aparılmayıb. Ancaq muxtar respublikamızda bu gün milli tariximizə, mədəniyyətimizə göstərilən diqqət Əlincəni də öz ağuşuna alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınıb pasportlaşdırılarkən Əlincəqala haqqında da məlumatlar toplanmış, Azərbaycan tarixinin yeni səhifələrinin açılmasına işıq salınmışdır. Bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələrin siyahısına daxil edilmişdir. “Muxtariyyət ili”nin əvvəllərində – 2014-cü ilin 11 fevral tarixində isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” Sərəncam imzalanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamından sonra Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və AMEA-nın Naxçıvan Bölməsi abidənin elmi-bərpa layihəsini hazırlamışdır. Artıq bir neçə aydır ki, Əlincəqalanın bərpasına başlanmışdır. Qeyd edək ki, qalanın iki əsas girişi olmuşdur. Bu girişlərdən biri Culfa-Qazançı avtomobil yolunun sağ tərəfindədir. Bərpa işlərinə də elə bu hissədən başlanmışdır. Belə ki, adıçəkilən avtomobil yolundan Əlincə dağının ətəklərinə qədər yol çəkilmişdir ki, bu da müxtəlif inşaat materiallarının müəyyən hissəyə qədər texniki vasitələrlə gətirilməsinə imkan verir. Buradan isə bu materiallar qalaya əllə və digər yardımçı vasitələrlə daşınır. Qısa müddət ərzində buradan qalaya qalxmaq üçün 700 saydan çox pilləkən salınmış, pilləkənlərin sağ və sol tərəflərində yağış və sel sularından qorunmaq üçün arxlar tikilmiş, suaxıdıcı borular qoyulmuşdur. Bundan əlavə, qalanın şərq və qərb hissələrini əhatə etməklə, dörd qala qapısı, eyni zamanda 200-dən çox bürcü əhatə edən qala divarları bərpa edilmişdir. Qala divarlarının bərpası zamanı divarların bərkidilməsi üçün, əsasən, əhəng məhlulundan istifadə olunmuşdur. Qalanın üstü isə hazırda böyük bir tikinti meydançasını xatırladır. Vaxtilə burada mövcud olmuş binaların bir qismi yaşayış sahəsi kimi, bir qismi isə ictimai bina kimi istifadə olunmuşdur. Bərpa zamanı burada süvarilərin atlarını saxladığı tövlələr, ərzaq anbarları və çörək bişirmək üçün təndirlər aşkar edilmişdir. Həmçinin qısa bir vaxtda burada xeyli sayda bir-birinin yaxınlığında yerləşən birotaqlı mənzillər bərpa edilərək əvvəlki vəziyyətinə qaytarılmışdır. Qazıntılar zamanı burada müxtəlif saxsı qab hissələri, həvənglər, əl dəyirmanları aşkar olunmuşdur. İş icraçısı Cabbar Hacıyevdən öyrənirik ki, qalada mövcud olan və bir zamanlar döyüşçülərin su ehtiyacını ödəyən hovuzlar təmizlənmişdir. Daşdan yonulmuş bu hovuzlardan ən böyüyünün dərinliyi bir hissədə 8 metrə, digər hissədə isə 3 metrə çatır ki, bu da, təxminən, 40 kubmetr su tutumuna imkan verir. Əsasən yağış və qar suları ilə doldurulan bu hovuzlara qayaların üzərində yonularaq açılmış arxlar vasitəsilə su dolur. Eyni zamanda inşaatçılar tərəfindən qalanın digər yuxarı hissələrinə qalxmaq üçün iri sal daş yataqları üzərində yonulma üsulu ilə pilləkənlər də salınmışdır. Əlincəqalanın ən yüksək “Şah taxtı” deyilən hissəsinə də ziyarətçilər üçün yol salınması planlaşdırılır, həmçinin buradakı qala divarlarının bərpası növbəti mərhələlərdə həyata keçiriləcəkdir.

***Bəli, möhtəşəm Əlincəqala yazılı qaynaqlarda VI əsrdən etibarən xatırlanmışdır. Qalanın xatırlandığı ən qədim mənbə “Kitabi-Dədə Qorqud” dastanıdır. Əlincəqala haqqında tarixçilərdən Nəsəvi (XIII əsr), Şərafəddin Əli Yəzdi (XV əsr), türk səyyahı Övliya Çələbi (XVII əsr) və başqaları məlumat vermişlər. Artıq müasir dünya insanlarının da bu qala haqqında geniş məlumatlar almalarının, buranı ziyarət etmək imkanına malik olmalarının vaxtı yetişib. Yaxın gələcəkdə Naxçıvan, tarixinin daha bir səhifəsini onu ziyarət edənlərin üzünə açacaqdır. Bunun üçün isə bu gün Əlincəqalada yeni tarix yazılır... Yazılır ki, həm də qədim tarixi oxumaq mümkün olsun.***

**Səbuhi HƏSƏNOV**

## “Nuh yurdu” komandası üçüncü oldu




5-7 dekabr tarixlərində Qusar rayonunda respublikanın müxtəlif bölgələrindən 32 komandanın iştirakı ilə keçirilən yeniyetmələr arasında “Xəmsə” Milli İntellektual Oyununun IV Azərbaycan Çempionatına yekun vurulub. Azərbaycanın milli mədəniyyətinin və tarixinin təbliğ edilməsi, yeniyetmələrin intellektual potensialının inkişaf etdirilməsi və qabiliyyətlərinin aşkar olunması üçün əlverişli şəraitin yaradılması, eləcə də asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən oyunda Naxçıvan Muxtar Respublikasını “Nuh yurdu” komandası təmsil edib. Komandamız respublika çempionatında mükəmməl oyun sərgiləyərək 3-cü yerə layiq görülüb.

## Kross yarışı



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Şahbuz Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Şahbuz rayonunda ümumtəhsil məktəblərinin şagirdləri arasında 2000 metr məsafəyə qaçış üzrə kross yarışı keçirilib. Şahbuz şəhərindəki “28 May” küçəsində keçirilən və ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunan yarışda 30-a yaxın atlet mübarizə aparıb. Gərgin mübarizənin qalibi adını isə Ayrınc kənd tam orta məktəbinin şagirdi Eldar Cəbrayılov qazanıb. O, bütün rəqiblərini geridə qoyaraq hamıdan sürətli olduğunu sübut edib. Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Məhəmməd Şahgəldiyev ikinci, Sələsüz kənd tam orta məktəbinin şagirdi Rəşadət İsmayılov isə üçüncü olublar.

Qaliblərə təşkilatçılar tərəfindən xatirə diplomları təqdim edilib.

## Culfada boks birinciliyinə yekun vurulub

Dünən Culfa Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayon Uşaq-gənclər idman məktəbində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş yeniyetmə və gənclər arasında boks üzrə rayon birinciliyi keçirilib. 6 çəki dərəcəsində 40-dan çox dəri əlcək sahibinin mübarizə apardığı birincilik gərgin idman mübarizəsi şəraitində keçib. Yarışın nəticələrinə əsasən, Məmməd Məmmədov (35 kq), Məhəmməd Novruzov (40 kq), Kənan Əsgərov (44 kq), Atilla Haqverdiyev (48 kq), Fəxri Qazıbəyov (52 kq) və Sənan Rzayev (55 kq) öz çəki dərəcələrində bütün rəqiblərini məğlub edərək rayon birinciliyinin qalibi adını qazanıblar.

Qaliblərə təşkilatçı idarə tərəfindən diplomlar verilib.

## Zəka sahibləri qüvvələrini sınayıblar

Ötən gün Sədərək Rayon Gənclər və İdman İdarəsi ilə rayon Uşaq-gənclər şahmat məktəbinin birgə təşkil etdiyi məktəblilər arasında şahmat yarışına yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, xalqımızın ümummilli lideri Heydər Əliyevin anım gününə həsr edilən yarış Sədərək rayonundakı şahmat məktəbində təşkil olunub.

Tədbirin açılış mərasimində çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev ulu öndərin həyat və fəaliyyətindən, eləcə də ümummilli liderin şahmat idman növünə göstərdiyi qayğıdan danışıb.

İsveçrə sistemi üzrə keçirilən yarışda 40 zəka sahibi 2 yaş qrupunda qüvvəsini sınayıb.

İlk qrupda 12 yaşadək şahmatçılar mübarizə aparıblar. Bu qrupda daha bacarıqlı oyun sərgiləyən Hüseyn Musayev yarışın qalibi adını qazanıb. Murad Ələkbərov ikinci, Kənan Fətullayev isə üçüncü olublar.

12 yaşdan yuxarı zəka sahiblərinin mübarizəsində isə Turan Adnalı bütün rəqiblərini üstələyərək birinci pillənin sahibi olub. Ondan bir pillə geri qalan Vidadi Məmmədov ikinciliklə kifayətlənib. Cavid Nadirsoy isə yarışın üçüncüsü olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən fəxri fərman və diplomlar verilib.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Dövlət Universiteti

### *2014-2015-ci tədris ilinin qış imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır*

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) qış imtahan sessiyası 5 yanvar 2015-ci il tarixdən başlayır və 15 iş günü davam edir.

2. Kredit sistemi ilə təhsil alan I kurslarda isə qış imtahan sessiyası 5 yanvar 2015-ci il tarixdən başlayır və 20 iş günü davam edir.

3. 2013-2014-cü tədris ilinin yay imtahan sessiyasından akademik borcu qalan tələbələr 2014-2015-ci tədris ilinin qış imtahan sessiyası başlananadək akademik borclarını ödəməlidirlər.

Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

***Rektorluq***

## İtmişdir

Gülməmmədov Ramil Natiq oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

“Ramiq-85” Kiçik Müəssisəsinə (VÖEN-0200116511) məxsus möhür itdiyindən etibarsız sayılır.

* * *

Abdullayev Zeynal Əliabbas oğlunun adına 8 dekabr 1998-ci ildə verilmiş 025633 nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Ordubad şəhəri, Natiq Babayev küçəsi, ev 16, mənzil 2-də yaşayan Məmmədova Faqella Ənvər qızının adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1031